# Philosophical analysis problems of uniqueness and versatility in national culture

**Nigar Huseynova**
Institute of Philosophy and Sociology of ANAS, f.f.d., docent. Azerbaijan.
E-mail: mustafayev.azer1954@gmail.com
https://orcid.org/0000-0002-9546-2915

**Abstract.** The article analyzes the philosophical aspect of interconnect: on of the water prinsiples of uniqueness, universality and tolerance ideas in national cultures. The author draws attention to that unique world religions and philosophies emerged as a result of certain changes that led to breakdown of cultural seclusion, and tolerance ideas formed notions of mankind and human values and ideas. Tolerance ideas, prinsiples of unigness and universality in national cultures contribute to their lively dialectic unity through integration, mutual infiense, integration and respect. In conclusion it is shown that in the light of global tranfarmations a new sociocultural environment has an impact on uniqueness and universality of notional culture maleing it necessary for tolerance,dialocie humanism and maintaining cultural diversity.

**Purpose:** the problem of uniqueness and universality of national culture with the social-philosophical aspect.

**Methodology:** used in dialectical approach to root problem, inferior desktop data and problem probing, in the simplicity, and, in general, in the method of analysis and reconciliation.

**Scientific novelty:** take care of Azerbaijan in advance of the popularity of theoretical, functional and practical aspects of the problem of uniqueness and versatility in the national culture.

**Keywords:** national culture, uniqueness, universality, cultural divide, cultural identity, sosiocultural methods, tolerance, global transformation, dialogue.

http://dx.doi.org/10.29228/edu.244
**To cite this article:** Huseynova N.(2020) *Philosophical analysis problems of uniqueness and versatility in national culture*. «Scientific work», Vol. 34, Issue I, pp. 93-101.
**Article history:** Received – 01.03.2020; Accepted – 10.04.2020.

# Milli mədəniyyətlərdə unikallıq və universallıq probleminin fəlsəfi təhlili

**Nigar Hüseynova**
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, f.f.d., dosent. Azərbaycan.
E-mail: mustafayev.azer1954@gmail.com
https://orcid.org/0000-0002-9546-2915

**Annotasiya.** Məqalədə milli mədəniyyətlərdə unikallıq, universallıq prinsipləri və tolerantlıq ideyalarının qarşılıqlı münasibətləri fəlsəfi aspektdən təhlil edilmişdir. Müəllif hələ qədim dövrlərdə mədəni qapalılığı dağıdan dəyişikliklər nəticəsində unikal dünya dinləri və fəlsəfəsinin meydana gəlməsini, tolerantlıq ideyalarının bütlövlükdə bəşəriyyət haqqında və universal-ümumbəşəri dəyərlər və ideyalar haqqında təsəvvürləri formalaşdırdığını diqqətə çatdırır. Tolerantlıq ideyaları, milli mədəniyyətlərdə unikallıq və universallıq prinsipləri inteqrasiya, qarşılıqlı təsir,

qarşılıqlı qovuşma, bir-birinə nüfuzetmə sayəsində onların canlı dialektik vəhdətdə olmasına şərait yaradır. Yekun olaraq göstərilir ki, qlobal transformasiya şəraitində yeni sosiomədəni mühit milli mədəniyyətlərin unikallığına və universallığına təsir edir, tolerantlığı, dialoqa hazır olmağı, humanizmi, mədəni müxtəlifliyin qorunub saxlanmasını zərurətə çevirir.
**Məqsəd:** Milli mədəniyyətlərin unikallığı və universallığı problemini sosial-fəlsəfi aspektdən araşdırmaq.
**Metodologiya:** Problemə, hissə və tama, vahidə və ümumiyə, hərəkət və inkişafa dialektik yanaşma, müqayisəl təhlil metodlarından istifadə edilmişdir.
**Elmi yenilik:**-Azərbaycanda ilk dəfə olaraq milli mədəniyyətlərdə unikallıq və universallıq probleminin nəzəri, funksional və praktiki aspektdən tədqiqinə cəhd edilmişdir.
**Açar sözlər:** milli mədəniyyətlər, unikallıq, universallıq, mədəni müxtəliflik, mədəni özünəməxsusluq, sosiomədəni şərait, tolerantlıq, qlobal transformasiya, dialoq.

http://dx.doi.org/10.29228/edu.244
**Məqaləyə istinad:** Hüseynova N. (2020) *Milli mədəniyyətlərdə unikallıq və universallıq probleminin fəlsəfi təhlili.* «Elmi əsərlər», № 1 (34), səh. 93-101.
**Məqalə tarixçəsi:** göndərilib –01.03.2020; qəbul edilib – 10.04.2020

## Giriş / *Introduction*

Hər bir xalqın milli mədəniyyətinin unikallığı yalnız onun təkrarsız, fərqli, nadir, özünəməxsus xüsusiyyətlərini əks etdirmir, o həm də bütövlükdə bəşər sivilizasiyasının universal mədəni müxtəlifliyinin tərkib hissəsi olan bir fenomendir. Azərbaycanda unikallıq və universallığın vəhdəti kimi çıxış edən milli mədəniyyət çoxəsrlik mədəni ənənələri və irsi ilə, ideal tolerantlıq dəyərləri ilə bütün dünyada şöhrət qazanmışdır. Çağdaş dünyamızda xalqımızın mədəni sərvətlərinin zənginliyi, universallığı və unikallığı, mədəni-tarixi özünəməxsusluğu, milli-mədəni əhəmiyyət kəsb edən maddi və mənəvi mədəniyyət abidələri qorunub saxlanılır və gələcək nəsillərə ötürülür. Bu günün özündə də Azərbaycanın mədəni müxtəlifliyi və unikallığının qorunub saxlanılması prioritet məsələlər olaraq qalmaqdadır. Çünki xalqımızın bu nadir və təkrarsız sənət əsərləri mübadilə, yenilik və yaradıcılığın mənbəyi olub, milli mədəniyyətimizin unikallığını və universallığını əks etdirir.

Mədəniyyətlərin universallığı və unikallığı problemini ilk dəfə Qərb maarifçiləri, təkamülçülər, sonralar isə klassik alman filosoflarından Hegel, marksistlər, XX əsrdə isə yeni təkamülçülərdən R. Horrol, C. Stüart, M. Uayt, M. Harris, K. Caspers araşdırmışlar. Onlar daha çox mədəniyyətlərin universallığına kulturoloji aspektdən yanaşmağa üstünlük vermişlər.

Rusiya tədqiqatçılarından A. İ. Arnoldov, A. S. Axiezer, L. M. Batkin, M. S, Koqan, V. J. Kelle və başqaları mədəniyyələrə monist nöqteyi-nəzərindən yanaşmışlar. Digər alimlər - S. N. Artanovski, U. V. Bromley və başqaları isə mədəniyyətlərə plüralist yanaşaraq universallığı mütləqləşdirmiş, unikallığı isə inkar etmişlər.

## Əsas hissə / *Main part*

Problemə birtərəfli yanaşan, daha çox mədəniyyətlərin unikallığına üstünlük verən M.N.Kokareviç "Mədəniyyətin unikallığı və bərabərdəyərliliyi mədəniyyətlərarası tolerantlığın şərti kimi" məqaləsində göstərir ki, müasir şüurda mədəniyyətlərin mövcudluğu ideyası keyfiyyətcə özünəməxsus mədəniyyətlərin birgə yanaşı yaşaması kimi təsdiq olunur. "Bu zaman hər bir mədəniyyət özünün mental nüvəsi ilə onun qarşılıqlı nüfüz etməsini müəyyənləşdirir. Mədəniyyətlər arasında tolerantlığın yeganə əsası bütün xalqların və mədəni sərvətlərin bərabər dəyərliliyi ideyasıdır. Həmin

ideya eyni zamanda hər bir mədəniyyətin öz unikallığının dərk olunmasına əsaslanır".[5, s. 5] Beləliklə, hər bir xalqın öz mədəni unikallığının dərk olunması milli ideya axtarışları ilə bağlıdır.

Onu qeyd edək ki, milli ideya azərbaycanlılar üçün türk-müsəlman idealı və dəyəri kimi çıxış edir. İslamın xüsusi rolu ondadır ki, özündə azərbaycanlı etnosunu birləşdirir, milli-mənəvi dəyər qaydalarını, Azərbaycan mədəniyyətinin ideallarını və xalqın xarakterini müəyyənləşdirir. Azərbaycan xalqı türkdilli tayfaların əsasında, vahid mədəni sivilizasiyanın ümumiliyi və yekdil mentallığı əsasında formalaşmışdır.

XXI əsrdə dünya mədəniyyətlərinin inkişafında yeni tipli mədəniyyətlərarası dialoq təşəkkül tapır. Bu isə dinc yanaşı yaşamanın və davamlı inkişafın əsas şərtidir. Rusiyalı tədqiqatçılar O.N. Astafyev, L.B. Nikonorova və O.V. Şlıkovanın yazdıqları "İnformasiya dövrü: mədəniyyətlərin və təhsilin yeni paradiqmaları" monoqrafiyasında dialoq paradiqmalarının nəzəri və praktiki nöqteyi-nəzərdən dərin dəyər-məna kəsb etdiyi göstərilir:"

1. Müasir dünyada aşkarlıq, mədəni müxtəlifliyə və mədəni irsə yüksək hörmət prinsipləri, tolerantlıq təzahürünün mədəniyyətlərarası kommunikasiyasının genişlənməsinə istiqa-mətlənmiş sosiomədəni proses.

2. İnsanların qarşılıqlı təsirlərinin sosiomədəni praktiki tipi.

3. İnsanlar arasında münasibətlərın formaları.

4. Bütün dünyada milli təhlükəsizliyin transformasiyasını təmin edən sosial institut.

5. Mədəni siyasət strategiyası.

6. Demokratiyanın inkişafı və vətəndaş cəmiyyətinin təşəkkülü diskursunda mədəniyyətlərarası qarşılıqlı münasibətlərin öyrənilməsinə imkan verən elmi təhlil və elmi-nəzəri konsept". [4, s. 82-83]

Bununla da burada dialoqun müxtəlif konponentləri-dəyər-məna, struktur-təşkili, elmi-nəzəri cəhətlər fərqləndirilir. Lakin mədəniyyətlərdə universallığın və unikallığın vəhdətinə toxunulmur.

Azərbaycan tədqiqatçıları M. Manafova, N. Əfəndiyeva mədəniyyəti tarixi kulturoloji aspektdən şərh etmişlər.

Akademik R. Mehdiyev mədəniyyətlərdə millilik və ümumbəşəriliyin vəhdət, AMEA-nın müxbir üzvü N. Cəfərov Azərbaycan mədəniyyətinin unikallığı, filioiogiya elmləri doktoru, professor A. İmanquliyeva mədəniyyətlərdə ortaq mənəvi dəyərlər, AMEA-nın müxbir üzvü S. Xəlilov və professor R. Xəlilov (Ulusoy) milli və qlobal mədəniyyətlərin qarşılıqlı münasibətləri, fəlsəfə üzrə fəlsəfə doktoru S. Əhədova mədəniyyətlərarası qarşılıqlı münasibətlərdə dialoq və universal dəyərlər kimi məsələləri araşdırmışlar.

Müasir fəlsəfi ədəbiyyatda, mədəniyyətlərdə universallığın və unikallığın qarşılıqlı xüsusiyyətləri məsələsi hələ kifayət qədər öz nəzəri həllini tapmamışdır. Buna görə də XXI əsrin əvvəllərində tolerantlıq ideyalarının milli mədəniyyətlərin unikallığı və universallığı kontekstindən öyrənilməsi xüsusi aktuallıq kəsb edir.Tolerantlıq ideyalarının kökləri öz təbiətinə və əhəmiyyətinə görə unikal və universal olan Azərbaycanın qədim milli mədəniyyətlərinə gedib çıxır. Ölkəmizdə tolerant dəyərlər sisteminin yaradılmasında və inkişafında milli mənsubiyyətindən, dilindən, dinindən və mentalitetindən asılı olmayaraq bir çox etnoslar iştirak edirlər. Bu mənada dünyanın unikal mədəniyyətinə malik olan Azərbaycan xalqı universal mənəvi-mədəni dəyərlərilə fərqlənir.

**Milli mədəniyyətlərin unikallığı və universallığının vəhdəti.** Milli mədəniyyətlərin unikallığı və universallığının vəhdətinin yaranmasında tolerantlıq ideyaları müstəsna rol oynayır. Xalqlar arasında qarşılıqlı münasibətlərdəki dözümlülük münasibətləri tədricən milli qapalılığı aradan qaldıraraq müxtəlif mədəniyyətlərdə universallığın, mədəni universiyaların, yəni ən ümumbəşəri ideallarin və dəyərlərin təşəkkülünə gətirib çıxartmışdır. Alman filosofu Karl Yaspers göstərir ki, milli mədəniyyətlərin qapalılığını dağıdan ilk böyük dəyişikliklər eramızdan əvvəl IV əsrdə baş vermişdir. Bu zaman əvvəlcə qədim Şumerdə, Babilistanda, Misirdə, Yunanıstanda, sonralar isə Hindistan və Çin ərazilərində mədəniyyət formalaşmağa başlamışdır.[9, s.175] Bütün bu sivilizasiyalar dar tayfa mədəniyyəti çərçivəsini dağıdaraq universal normaların yaranmasına səbəb olmuşdur.

Bəşər mədəniyyəti tarixində K.Yaspers ikinci böyük dönüşün eramızdan əvvəl VIII-III əsrlərdə baş verdiyini göstərir. Bu dövrdə müxtəlif ölkələrdə böyük müdriklər və qədim dövrlərin böyük zəka sahibləri-Çində Konfutsi, Lao-tszı, Hindistanda Budda, Azərbaycanda Zərdüşt, Fələstində İlya, İsa, Yeremey, Yuna-nıstanda Homer, Fales, Heraklit və digər məşhur filosoflar yaşayıb-yaratmağa başlamışlar.

Həmin dövrdə unikal dünya dinləri və fəlsəfəsi meydana gəlməklə yanaşı, tolerantlıq ideyaları, bütlövlükdə bəşəriyyət haqqında və universal-ümumbəşəri dəyərlər və ideyalar haqqında təsəvvürlər formalaşdı, vahid, əhatəli mədəni-tarixi proses təşəkkül etməyə başladı. Bu zaman mənəvi dəyişikliklərdən kənarda qalan xalqlar da gec-tez bu prosesə qoşularaq dünya tarixinin fəal iştirakçılarına çevrildilər. Tolerantlıq ideyaları lokal, unikal mədəniyyətləri universal, ümumbəşəri dünya mədəni məkanına qovuşdurdu. “Bəşəriyyətin bioloji növü olan antropoloji vəhdətinə indi onun mədəni birliyi də əlavə olundu” [12]. Bu, o deməkdir ki, tolerant mühitdə müxtəlif mədəniyyətlər daha çox qarşılıqlı əlaqədə inkişaf edir, başqa xalqların spesifik, unikal cəhətlərinin dərk olunması dərinləşir, harada yaranmasından asılı olmayaraq mədəni nailiyyətlərin ümumi qiymətlən-dirilməsi təşəkkül tapır.

Müasir dövrdə praktiki olaraq bütün xalqlar və dövlətlər tədricən tolerant mühitdə qapalı mədəniyyətdən dünya mədəni-tarixi proseslərinə keçid mərhələsini yaşayırlar.

Bildiyimiz kimi, milli mədəniyyətlərin unikallığı və universallığı sinergetik yanaşmaya əsaslanır. Burada ənənəvi, müasir, liberal unikallığı və universallığı özündə əks etdirən mədəniyyət strukturu qarşılıqlı anlaşma, tolerantlıq sayəsində qlobal dialoqun əsas şərti kimi şıxış edir. Rusiyalı tədqiqatçı A.Sadoxinin tolerantlıq ideyalarını milli mədəniyyətlərin unikallığı və universallığı kontekstində təhlil etməsi ciddi maraq doğurur. O yazır: “İnsan və cəmiyyətin bütün dəyərlər sistemində mədəni dəyərlər xüsusi yer tutur ki, o da öz növbəsində iki əsas qrupa bölünür: Birincisi, görkəmli intellektual bədii və dini yaradıcılıq əsərlərinin məcmusu; ikincisi, insanların birgə yaşayış prinsipləri; adətlər, ənənələr, şüur, davranış, hüquq stereotipləridir ki, onlar cəmiyyətin inteqrasiyasının, insanlar arasında qarşılıqlı anlaşmanın, həmrəyliyin, qarşılıqlı yardımın inkişafında aparıcı rol oynayırlar. Mədəni dəyərlərin hər iki qrupu istənilən mədəniyyətin nüvəsini təşkil edir və onun təkrarsızlığını müəyyənləşdirir” [7,46]. Fikrimizcə, unikal və universal mədəniyyətlər tolerant mühitdə bir-birilə qarşılqlı təmasda və zənginləşmədə olur. Bəzən onların qarşılıqlı münasibətlərində tolerantlıq ideyası kifayət etmir. Deməli, yalnız o mədəniyyət universallıq statusu qazana bilər ki, o, dialoq, əməkdaşlıq, qarşılıqlı anlaşma vasitəsi olsun.

Müasir Azərbaycan cəmiyyəti öz tolerantlığı, unikal və universal mədəniyyət ilə fərqlənir. Burada ayrı-ayrı özünəməxsus mədəniyyətlər birgə, yanaşı yaşamaq imkanına malikdirlər. Başqa sözlə, xalqımızın tolerant şüurunda hər bir mədəniy-yət mədəni qarşılıqlı nüfuzetmənin mental nüvəsi kimi öz əksini tapır. Çünki hər bir milli mədəniyyətin inkişafı, yanaşı mövcudluğu məhz tolerant cəmiyyətdə özünəməxsusluğun, unikallığın və universallığın, bütün mədəniyyətlərin bərabərliyinin təmin olunması şəraitində mümkündür. “Eyni zamanda tolerant münasibətlərin yeganə əsası bütün xalqların və mədəniyyətlərin bərabərliyi ideyasıdır. Həmin ideya isə həm də mədəniyyətin öz unikallığının qavranılmasına söykənir”[10]. Yalnız bu mənada Azərbaycan xalqının milli mədəniyyətinin unikallığının və universallığının dərk olunması əsasında milli ideallarin və dəyərlərin fundamenti olan ideya axtarışları reallaşa bilər.

Zəngin milli mədəniyyətlərin və ideyaların ən önəmli xidmətlərindən biri odur ki, onların qarşılıqlı təsiri və mübarizəsi, eləcə də qlobal transformasiya nəticəsində ictimai həyatın bir çox sahələrində yeni məzmun və keyfiyyət dəyişiklikləri baş vermişdir.

Fəlsəfədə plüralizmdən, unikallıq və universallıqdan bəhs edən tədqiqatçılar müxtəiif fəlsəfi cərəyanlar və nəzəriyyələrin qarşılıqlı münasibətlərində tolerantlığın zəruriliyini xüsusi olaraq qeyd edirlər. Mədəniyyətlərdə, dinlərdə və fəlsəfələrdəki unikallıqdan daha geniş məna kəsb edən universallıq sosial-intellektual səviyyə və sivilizasiya növü kimi də çıxış edir.

Məsələn, rusiyalı tədqiqatçı V.L.Vasyukov “unikallığa iddia edən universal mövqeyin reallaşmasının yalnız tolerantlıq ideyalarının köməyilə mümkün olduğunu”[3, s.14] göstərir. Müəllif

tolerantlığı fikir plüralizmi hesab edərək onun universallığın mövcudluğunu təmin etdiyini diqqətə çatdırır. Buradan aydın olur ki, milli mədəniyyətlərin unikallığı və universallığı onun mühüm fundamental anlayışlarından biridir.

Milli mədəniyyətlərin unikallığı və universallığı yuxarıda deyildiyi kimi, fəlsəfədə, kulturologiyada, mədəniyyət fəlsəfəsi və sosiologiyada istifadə olunan ənənəvi elmi anlayışlardan biridir. XX əsrin əvvəllərində qloballaşma konteks-tində, onların tədqiqi kəskin xarakter kəsb etmiş, problemə müxtəlif yanaşmalar meydana gəlmişdir. Hamı üçün vahid homogenliyin, qlobal mədəniyyətin formalarından tutmuş öz unikallığını qoruyan sivilizasiyaların barışmaz toqquş-masına qədər mədəni proseslərin tətqiqi diqqət mərkəzində idi. Məhz bu səbəbdən də praktiki olaraq qlobal mədəniyyətlərin dialoquna əsaslanan yeni paradiqmalar meydana gəlir. Deməli:“Tolerantlığa, qarşılıqlı hörmətə, əməkdaşlığa, həmrəyliyə əsaslanan mədəniyyətlərin inteqrasiyası dünya nizamının çoxqütblü modelinin yaradılmasının mühüm şərtidir. O, insanların mənəvi, intellektual, emosional cəhətdən zənginləşməsinə səbəb olur, dövlətlər arasında münasibətlərdə dinc yanaşı yaşama prinsiplərini yaradır, dünyanı münaqişələrdən uzaqlaşdırır. Onun təsiri altında vahid şəkildə, universal ənənələr üçün xarakterik olan lokal (eyni zamanda unikal N.H.) mədəniyyətlərin sintezinin ideyası kimi bəşəriyyət haqqında təsəvvürlər aktuallaşır” [2, s.6]. O.Q.Belomoyeva dəyişən dünyada bəşəriyyətin mövcudluğunun əsasını tolerantlığa bağlı olan unikal və universial mədəni müxtəlifliyin qorunmasında görür.

Ona görə mədəniyyətlərin müxtəlifliyi və dialoqu sülhün, həmçinin əmin-amanlığın rəhni kimi çıxış edir.

Tolerant mühitdə mədəniyyətlərin unikallığı, çoxluğu və universallığı status müxtəlifliyində, güclü diasporun mövcudluğunda, regional və subetnik səviyyələrdə, mədəni plüralizmin inkişafında təzahür edir.

Qərb tədqiqatçısı P.Xarris tolerantlığın milli mədəniyyətlərin unikallığına və universallığına təsirindən bəhs edərək yazır: “Tolerantlığa cəmiyyətin rifah halının yüksək səviyyəsi; özünəməxsus mədəniyyətin qorunub saxlanması, digər mədəniyyətlərə hörmət bəsləməyə imkan verən şəxsi ləyaqət hissinin mövcudluğu; cəmiyyətin açıqlığı; başqa mədəniyyətlərin və xalqların nümayəndələri ilə ünsiyyət təcrübəsinin olması; mədəniyyətlərarası təmasların mümkünlüyü” [8, s.354-355] daxildir. Burada mədəniyyətin unifikasiyası problemi bütün səviyyələrdə diqqət mərkəzində durur. Bu zaman etnomədəni unikallığın və qlobal mədəni plüralizm və universallığın qorunub saxlanması və inkişafı fəlsəfi kateqoriyalara xas olan ən ümumi və xüsusi arasında münasibətlərin reallaşması yolu ilə həll olunur.

**Unikallıq, universallıq və mədəni universiyalar**.Mədəni-humanist universallığın vəhdət, müstəqillik, qeyri-müəyyənlik, dinamik sintez, tənqidi, ehtiyatlı ümumiliəşdirmə, mənəvi azadlıq kimi prinsipləri vardır. Mədəni universallığın tərəfdarları mədəniyyətlərin müxtəlifliyinə fərqli yanaşırlar. Onların çoxu belə hesab edir ki, unikal mədəniyyətlərin müxtəlifliyi keçicidir və bəşəriyyət üçün gələcəkdə universal dəyərlərə əsaslanan vahid dünya sivilizasiyası yaranacaqdır.

Hal-hazırda dünya sivilizasiyası müxtəlif unikal mədəniyyətlərin birliyi kimi reallığa çevrilməkdədir. Bəşəriyyətin həyatında coğrafi mövqeyindən, cəmiyyətin sosial-siyasi quruluşundan, məkan və zamandan asılı olmayaraq bütün unikal mədəniyyətlərə xas olan normaların, dəyərlərin, qaydaların, ənənələrin və xüsusiyyətlərin məcmusu olan mədəni universiyalar mövcuddur. Hər bir mədəniyyətin özünəməxsus universiyaları vardır. Dünya sivilizasiyasının reallıq kimi səciyyələnən mühüm əsasını mədəniyyətlərarası qarşılıqlı münasibətlər, o cümlədən tolerantlıq ideyaları təşkil edir. Deməli, tolerant mühitdə “mədəniyyətlərin və sivizasiyaların inkişafının təmin edilməsi prosesi o zaman baş verir ki, onlar arasında qarşılıqlı əlaqə və qarşılıqlı təsir bir-birini tamamlayır.Çünki onların hər biri unikaldır, əhəmiyyətlidir və dünya mədəniyyətinə öz töhfəsini verir. Başqa sözlə, mədəni-tarixi proses fasiləsiz şəkildə davam etdiyindən burada, bir mədəniyyətin müəyyən nailiyyətləri digər xalqlar tərəfindən mənimsənilir və bəşəriyyətin yaddaşında qorunub saxlanır”[11]. Təsadüfi deyildir ki, bu nailiyyət-lərin ən nadir inciləri planetin bütün xalqlarının unikal və universal milli mədəniyyətlərinin böyük sərvəti olan dünya mədəni məkanının xəzinəsinə daxildilər. Dünya

mədəniyyətləri və sivilizasiyalarının tərkib hissəsi olan müxtəlif unikal və universal milli mədəniyyətlərin ən parlaq nümayəndələri ümumi mənşəyi etibarı ilə bir-birilərilə bağlı olub oxşar tələbatlara malikdirlər.Deməli, unikal milli mədəniyyətlərin vəhdəti universallığı yaradır.

Bir çox tədqiqatçıların fikrincə, vahid universal mədəniyyət ideyası, əslində plüralizmlə ziddiyyət təşkil edir və belə bir şəraitdə tolerantlıq zərurətə çevrilir. Tolerantlıq ideyaları mədəniyyətlərarası gərginliyin aradan qaldırılmasının və dinc yanaşı yaşamanın unikal mexanizmidir. Təsadüfi deyildir ki, bu fenomendə xalqın uzun əsrlik müdrikliyi öz əksini tapmış, qərinələrdən-qərinələrə keçərək bu günümüzə gəlib çatmışdır. Bu mənada tolerantlıq və normalar ənənəvi unikallığın və universallığın vəhdəti olan milli mədəniyyətlərin tərkib hissəsidir. Tolerantlıq dözümlülüyün təzahürü kimi Qafqaz xalqlarının, o cümlədən Azərbaycanın da unikal etiketində öz əksini tapmışdır. "Hazırda tolerantlıq başqalarının fikrinə, baxışlarına, hərəkətlərinə passiv itaətkarlıq kimi deyil, fəal mənəvi mövqe, etnoslar arasında qarşılqlı anlaşma, digər mədəni, etnik, dini, sosial birliyə mənsub insanlarla pozitiv qarşılıqlı əlaqə naminə dözümlülüyə hazır olmaq kimi başa düşülür. Tolerantlıq bəşəriyyətin vahidliyini, hər kəsin hamıdan, hamının hər kəsdən qarşılıqlı asılılığının intuitiv qavranılmasını, digərlərinin hüquqlarına (o cümlədən başqa cür olmaq hüququna) hörməti özündə ehtiva edir"[1, s.265]. Bir sözlə, tolerantlıq milli mədəniyyətlərdə unikallıq və universallığın vəhdətinə təsir edən mühüm amillərdən biridir. Başqa sözlə, tolerantlıq, milli mədəniyyətlərin, mədəni ideyaların dünyaya yayılması, humanizm, dialoqa hər zaman hazır olmaq xüsusiyyətləri də xasdır. Ona öz mədəni dəyərlərinə qapılmaq, millətçilik, "digərlərinə" münasibətdə dözümsüzlük, universiallığın və ya unikallığın birtərəfli mütləqiləşdirilməsi, digər mədəniyyətlərlə qarşılıqlı əlaqədə təcridçilik və ya qütbləşmə formaları tamamilə yaddır.

Mədəniyyətlərin tolerantlığa əsaslanan unikallıq və universallığın vəhdəti ideyası homogenləşmə ideyasına gətirib çıxarmağa imkan vermir, belə ki, o, çoxluq formasında təzahür edən mədəniyyət fenomeninin bütövlüyünü ifadə edir.

Tolerantlıq ideyaları milli mədəniyyətlərdə fərdi, unikal və ümumi, universiallığın ayrılmaz bağlılığını təmin edir. Çünki o, unikallıq və universallığın ifadə vasitəsidir və ən ümumi olmadan mövcud ola bilməz. Dünya mədəniyyətində ümumi əhəmiyyətli, universal, ən ümumi olan unikal mədəniyyətlərin müxtəlifliyinin və çoxluğunun real formasında təzahür edir. Tolerant mühitdə mədəniyyətlərdə unikallıq və universallıq prinsipləri aşağıdakı kimi özünü göstərir: "Qeyd etmək lazımdır ki, mədəniyyətlərin universallığı dünyagörüş fenomeni kimi vahid, homogen mədəniyyətlərə müncər edilmir"[2, s.15]. Bununla da aydın olur ki, mədəniyyətlərdə unikallıq və universallıq tolerant mühitdə əsaslı şəkildə dəyişikliyə məruz qalır. Onların konseptuallaşması zamanı dünyagörüş forması olaraq partikulyarizmin yaranması nəticəsində sosiomədəni, tolerant şüurda əksini tapan universallıq-etnososiallıq münasibətlərində bəzən mədəniyyətlərin unikallığının mütləqləşdirilməsi də baş verir.

Bu münasibətlər çərçivəsində həmçinin ən ümumini, universallığı və unikallığı özündə ehtiva edən toqquşmalar olur. Tarixi prosesin əsas hərəkətverici qüvvələrindən biri də sivilizasiyaların inkişafi və sosial tərəqqidir, milli mədəniyyətlər isə unikal hadisədir. Modern dövrdə isə tolerant şüurda mədəniyyətin unikallığı universallığın konseptual tərkibinin başlanğıc mərhələsidir. Onun təzahürü də qloballaşma prosesində tarixi təfəkkürün yaranma-sı ilə bilavasitə əlaqədardır. Mədəniyyətlərin unifikasiya və standartlaşması haq-qında təsəvvürlər tarixi inkişafın gedişində daxili, lokal, unikal mədəniyyətlərdə təcəssüm olunan universallıqda təzahür edir. Bir sözlə, tolerantlıq ideyaları və müasir dövrün mədəniyyətləri mədəni müxtəlifliyin vəhdətinə əsaslanan inteqrasiyanı əks etdirir. Eyni zamanda, XX-XXI əsrlərdə mədəniyyətlərin universallığı və unikallığı modifikasiyaya məruz qalır. Artıq polisistemlılıyə, dialoqa və tolerantlıq ideyalarına əsaslanan yeni sosiomədəni modellər meydana gəlir və nəticədə müasir transmodernizm bəşər mədəniyyətinin yeni inkişaf mərhələsinə çevrilir. Onun gedişində modernizmdə olan XX əsrin sonlarının təcrübəsinin tənqidi zəminində yenidən dərk edilməsi əsasında modernizmin nailiyyətlərinin səmərəli sintezi həyata keçirilir, modernist və ənənəvi unikal və universal mədəniyyətlər arasında tolerant dialoq yaranır. Burada tolerant dialoqun mənası onunla izah olunur ki, o,başqa mədəniyyətləri olduğu kimi qavramağa imkan verir. Çünki milli mədəniyyətlərin uğurlu qlobal tolerant dialoqunun səbəbi kimi

demokratizmi ön plana çəkirlər.Yuxarıda deyilənlərə istinadən belə nəticəyə gəlmək olar ki, milli mədəniyyətlərin unikallığı və universallığı, dünyagörüş fenomeni kimi tolerant mühitdə mədəniyyətlərin dialoqunun həyata keçrilməsini tələb edir.Fikrimizin bir növ əyani təsdiqi olaraq İ.V.Kondakov yazır ki, dialoqun mühüm cəhəti başqasının və milli özünüdərkin yaxşı refleksiya edilən məzmununun qəbul edilməsidir. Beləliklə, mədəniyyətlərin universallığının qaydalarını səciyyələndirən dialoq fəal proses olub yaradıcılıq anlamı mənasını ifadə edir, nəticədə mədəniyyətlərin dialoqu inkişaf edir, lokal mədəniyyətlərlə real olaraq müxtəlifliyi özündə əks etdirən mürəkkəb bəşər mədəniyyətinin qarşılıqlı zənginləşməsinin vəhdəti faktı qeydə alınır"[6, s.135]. Deməli, mədəniyyətlərin unikallığı və universallığı tolerant mühitdə bir çox dəyişikliyə məruz qalır. Yeni sosiomədəni şəraitdə isə qlobal transformasiyanın inkişafı milli mədəniyyətlərin qarşılıqlı əlaqələrini və tolerantlıq ideyalarını gücləndirir. Nəticədə polisistemliliyə əsaslanan bütövlük, vəhdət yaranır. Belə bir şəraitdə mədəniyyətlərin bərabərliyinə və müxtəlifliyinin qarşılıqlı təsirinə əsaslanan dialoq, tolerantlıq inkişaf edir. Bununla da fərqli mədəniyyətlərin vəhdəti ideyasına əsaslanan mədəni unikallığın və universallığın yeni modifikasiyası formalaşır.

Tolerantlıq ideyaları, mədəniyyətlərdə unikallıq və universallıq prinsipləri müasir dövrün kəskin problemlərindən olan identikliyin böhranının aradan qaldırılmasında da həlledici rol oynayır. Məlum olduğu kimi, sosiomədəni şəraitdə qlobal transformasiya yeni mədəni meyar kimi translokal mədəniyyətin təşəkkülünü zərurətə çevirir ki, bu da unikallığa təsir edir, milli mədəniyyətlərin qarşılıqlı əlaqəsi intensivləşir, mədəni müxtəliflik artır. Hazırda etnik, milli mədəniyyətlə yanaşı translokal mədəniyyət sahəsinin formalaşması unifikasiyanı, standartlaşmanı, kosmopolitizmi gücləndirir. Bu isə mədəni plüralizmin və unikallığın qorunub saxlanması əsasında mədəniyyətlərin inteqrasiyasının əldə olunmasına ciddi təhdid törədir.Başqa sözlə, mədəni müxtəliflik, mədəniyyətlərin dialoqu və qarşılıqlı anlaşma-tolerantlıq ideyaları milli mədəniyyətlərin mövcudluğu üçün əsas mexanizmə çevrilirlər.

## Nəticə / *Conclusion*

Beləliklə, milli mədəniyyətlərdə unikallıq universallıq və tolerantlıq ideyalarının qarşılıqlı münasibətləri müasir sosial fəlsəfənin aktual problemi olaraq qalmaqdadır. Onların vəhdəti ən ümumi və ya xüsusinin mütləqləşdirilməsini, unikallığın və ya universallığın inkar edilməsini deyil, bu prinsiplərin inteqrasiyasını, qarşılıqlı təsirini, qarşılıqlı qovuşmasını, bir-birinə təsir etməsini, onların canlı dialektik birlikdə olmasını tələb edir. Eyni zamanda, hər bir mədəni unikallıq tolerant mühitdə universallığı iddia edir, nəticədə zaman və məkan müstəvisində birləşən unikallıq, universallıq və tolerantlıq mədəni yaradıcılığın müxtəlifliyinin vəhdətini reallaşdırır.

Problemin sosial-fəlsəfi təhlili bizə onu deməyə əsas verir ki, qlobal transformasiya şəraitində yeni sosiomədəni mühit formalaşır, mədəniyyətlərarası ünsiyyət, mədəni qütbləşmə, qlokallaşma, mədəni assimliyasiya, hibridləşmə milli mədəniyyətlərin unikallığına və universallığına təsir edir, tolerantlığı, dialoqa hazır olmağı, humanizmi, unikallığın və universallığın, mədəni müxtəlifliyin qorunub saxlanması əsasında inteqrasiyanı, identikliyin böhranının aradan qaldırılmasını zərurətə çevirir.

## Ədəbiyyat / *References*


1. Əhədova S. Müasir dünyada mədəniyyətlərarası münasibətlər. Bakı: Elm, 2014, 348 s.
2. Belomoeva O.G Universalism kulturi: opit kulturologicheskogo analiza. Avtoreferat na soiskaniya uchennoy stepeni doktora kulturologii. Saransk. 2005, 32 s.
3. Vasyukov A.L. Tolerantnost i universalizm. Filosofskiy jurnal. 2008, №3, s.12-19.
4. İnformatsionnaya epoxa: noviyi paradigmi kulturi i obrazovaniya. Yekaterenburg: İzdatelstvo Uralskogo universiteta, 2019, 292 s.
5. Kokarevich M.N. Printsipi unikalnosti i ravnotsennosti kultur kak usloviye mejkulturnoy tolerantnosti. Vestnik TGPU, 2010. Vipusk 5 (95).

6. Kondakov İ.B. Samosoznaniye kulturi na rubeje tisyachiletiy. Obshestvenniyi nauki i sovremennost, 2001, №4, s.138-147.
7. Sadoxin A.P. Mejkulturnaya komunukatsiya. Moskva: Alfa-M. 2006, 288 s.
8. Xarris R. Psixologiya mossovi kommunikatsiy. 4-oye izdaniya. Sank-Peterburg, Moskva: OLMA-PRESS, 2002, 382 s.
9. Yasper K. Smisl i naznacheniya istorii. Moskva: Misl,1991, 278 s.
10. Printsipi unikalnosti i ravnotsennosti kultur kak usloviye mejkulturnoy tolerantnosti. // https: cuber leninka. Ru/ artihle/n/ prinsipy-unikalnosti kulmir. 30.09.2019.
11. Sushestvo i mnogoobrazie kulturi. Kulturniy relyativizm i kulturniy universalizm. // https: / studfiles. Net/ proview, 4258336// page 15/ 30.09.2019.
12. Unikalnost kultur i kulturnoye yedinstvo chelovechestva. // https: // studopedia org/ 7-47553. html 30.09.2019.

# Философский анализ проблемы уникальности и универсальности в национальных культурах

**Нигяр Гусейнова**
Институт философии и социологии НАНА, кандидат философских наук, доцент.
Азербайджан.
E-mail: mustafayev.azer1954@gmail.com

**Резюме.** В статье анализируется философский аспект взаимосвязи принципов уникальности, универсальности и идей толерантности в национальных культурах. Автор замечает, что уникальные мировые религии и философии возникли еще в древние времена, в результате изменений, которые привели к краху культурной близости и что идеи толерантности сформировали представления о человечестве и общечеловеческих ценностях и идеях. Идеи толерантности, принципы уникальности и универсальности в национальных культурах способствуют их живому диалектическому единству посредством интеграции, взаимовлияния и уважения. В заключении показано, что в контексте глобальных преобразований новая социокультурная среда влияет на уникальность и универсальность национальных культур, делая ее необходимой для терпимости, диалога, гуманизма и сохранения культурного разнообразия.
**Цель:** изучить проблему уникальности и универсальности национальных культур в социально-философском аспекте.
**Методология:** использованы сравнительно-аналитические методы и диалектический подход к проблеме, единему и общему, движению и развитию.
**Научная новизна:** впервые в Азербайджане была предпринята попытка изучить теоретические, функциональные и практические аспекты проблемы уникальности и универсальности в национальных культурах.
**Ключевые слова:** национальные культуры, уникальность, универсальность, культурное разнообразие, культурная идентичность, социокультурные условия, толерантность, глобальная трансформация, диалог.